Səyyar qəbullar

Kənddə görüş

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iyulun 15-də Topbağ kənd sakinləri ilə görüş-qəbul keçirmişdir. Qəbulda sakinlər, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri iştirak etmişlər.

Tədbiri açan cənab başçı qeyd etdi ki, icra hakimiyyətində təsdiq olunmuş qrafikə uyğun olaraq qəsəbə və kəndlərdə əhali ilə görüş-qəbullar keçirilir. Bu günkü qəbulda Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev iştirak edir.

Sonra kənd icra nümayəndəsi Rasim Ağayev kəndin sosial-iqtisadi durumu barədə məlumat verdi. O, qeyd etdi ki, kənddə 120 ailə təsərrüfatında 560 nəfər əhali yaşayır. Əhalinin əsas məşğuliyyətini əkinçilik, meyvəçilik, heyvandarlıq və tərəvəzçilik məhsulları istehsalı təşkil edir.

Görüş-qəbulda iştirak edən idarə, müəssisə və təşkilat rəhbərlərinin məlumatları dinlənildi.

Görüş tam sərbəst şəkildə davam etdirildi. Kənd sakinləri adından ağsaqqal Qüdrət Məmmədov çıxış edərək kənddə görülən işlərə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, kənddə qaz xəttinin çəkilməsinə və yolun təmirinə ehtiyac var.

Sakinlərdən İradə Şirinova və Fənarə Alışanova qeyd etdilər ki, kənddə yaraşıqlı, müasir tələblərə cavab verən məktəb binası, tibb məntəqəsi tikilmişdir.

Kənd əhalisi göstərilən bu qayğıya görə ölkə Prezidentinə və rayon rəhbərliyinə minnətdarlıq edir.

Görüşdə çıxış edən cənab başçı qeyd etmişdir ki, dövlətimizin əsas diqqəti əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Belə ki, Regionların Sosial-İqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq bütün respublikamızda olduğu kimi, rayonumuzun şəhər, qəsəbə və kəndlərində də sürətli işlər görülür. Bu işlər tam olaraq əhalinin sosial-rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Uğurlu inkişaf bundan sonra da davam edəcəkdir.

Sonda cənab başçı görüşdə qaldırılan məsələlərin həlli üçün müvafiq təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

Oqtay MƏMMƏDOV.

Təbrik edirik!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyun ayının 25-də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup dövlət qulluqçusunu təltif etmişdir. Təltif edilənlər arasında Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ağasəfov Abil Adil oğlu da vardır. O, «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur. Dünən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev medalı Abil Ağasəfova təqdim etmişdir.

Ağdamın işğalından 21 il keçir

Ağdamlılar sabaha ümidlə, inamla baxırlar

1993-cü ilin iyul ayının 23-də Ağdam rayonunun ərazisinin 77,4 faizi Erməni silahlı qüvvələri tərəfindən işğal edildi.İllərdən bəri məkrli, çirkin siyasətlərini xarici havadarlarının köməyi ilə həyata keçirən düşmən xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən möhtəşəm abidələri dağıtdı, evlərə od vurdu, 80 min ağdamlını ata-baba yurdundan didərgin saldı, insanların əmlaklarını qarət etdi, Ağdam şəhərini tərk edə bilməyən dinc əhaliyə isə amansız divan tutdular. Ağdam Qarabağ savaşında digər rayonlarla müqayisədə dəfələrlə artıq şəhid verdi.

(Ardı 8-ci səhifədə).

«Qəbələ» qəzeti xalqın tribunasıdır

Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox şeylər göstərilməsini tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir.

Heydər Əliyev.

"Əkinçi" qəzetinin qolu olan "Qəbələ" qəzeti 1933-cü ilin oktyabrında nəşrə başlamışdı. İlk dəfə "Bolşevik mübarizi" adı ilə çıxan nəşr müxtəlif illərdə "Mübariz", "Qalibiyyət" adları ilə fəaliyyət göstərib. Dövrün, zamanın sınaqlarından çıxan qəzet müxtəlif adlarla nəşr olunsa da, özünəməxsus dəst-xətti ilə seçilib, hadisə və proseslərə daim peşəkar yanaşma tərzi nümayiş etdirib, rayon sakinlərinin dərin rəğbətini qazanıb. Qəzetə müxtəlif illərdə Nəriman Nərimanov, Əhmədpaşa Hacıyev, Baba Qəhrəmanov, Ramazan İsmayılov, Əziz Əzizov, Tacəddin Şahdağlı, 2001-ci ilin iyunundan 2011-ci ilin oktyabr ayınadək Nadir Atakişiyev (hal-hazırda məsul katibdir) redaktorluq etmişlər.

Hazırda qəzetin redaktoru Oqtay Məmmədovdur. Bu illər ərzində dəyişən qəzetin yalnız adı və redaktorları olub. Qəzetə redaktorluq edənlərin əməyi və yaradıcılığı sayəsində qəzet bəzi dövrlərin çətin sınağından həmişə alnıaçıq və mübariz çıxmışdır. 81 il tamam olur ki, Qəbələ qəzeti ilk nömrəsindən doğru, ədalətli, qərəzsiz yol seçmiş, düzü-düz, əyrini-əyri yazmışdı. Bu qəzet hər şeydən əvvəl xalqın və dövlətin mənafeyinin qarantı olmuş, daim xalqın hüquqlarını müdafiə etmiş, xalqın tribunası rolunu oynamışdır.

Qəzetin ana xətti bu gün ölkəmizdə, o cümlədən Qəbələdə sosial-iqtisadi inkişafda qazanılan uğurları, eyni zamanda qarşıda duran vacib vəzifələri oxucu kütləsinə çatdırmaq və təbliğ etməkdən ibarətdir. Qəzet işıq üzü görəndən bəri qərəzli və ədalətsiz mövqe tutmamışdır. Onun başlıca prinsipi dəqiq, qərəzsiz sosial ədalətsizliyə, saxtakarlığa, süründürməçiliyə, bürokratizmə qarşı barışmaz mübarizə aparmaqdan ibarət olmuşdur. Qəzet böhtan, təhqir kimi yazılardan həmişə uzaq olub. Onun səhifələrində kənd təsərrüfatının inkişafında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində, sahibkarlıq qurumlarında, tikinti təşkilatlarında qazanılan uğurlara, qarşıda duran çox vacib məsələlərə geniş yer verilir. Eyni zamanda rayonda qabaqcıl təcrübənin təbliği, nöqsanların tənqidi qəzetin daimi mövzularındandır. Qəzet öz ənənəsini bu gün də layiqincə davam etdirir. Məhz buna görə "Qəbələ" qəzeti rayonun çoxsaylı oxucu kütləsinin stolüstü informasiya vasitəsinə çevrilmişdir.

Qeyd etmək yerinə düşər ki, rayon icra hakimiyyəti qəzetin müntəzəm nəşr olunmasına, onun tirajının ilbəil artmasına daim diqqət yetirir.

1990-cı ilin əvvəlində ölkədə, o cümlədən Qəbələdə yaranmış özbaşınalıq, hərc-mərclik informasiya vasitələrinə də təsir göstərmişdir. Həmin illər bağlanmaq təhlükəsi ilə "Qəbələ" qəzeti də üzləşmişdi. İndi isə qəzet 2000-dən artıq tirajla hər həftə A-3 formatında səkkiz səhifə ilə buraxılır. Hal-hazırda redaksiyada savadlı, peşəkar kadrlar fəaliyyət göstərir. Redaksiyanın özünün kompüter mərkəzi yaradılmış, internetə qoşulmuşdur.

Aslan CƏLİLOV.